*Peşə təhsili və insan kapitalı. Cild 4, №4, 2021 s.34-40*

# ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA PEŞƏ TƏHSİLİNİN YERİ VƏ MALİYYƏ RESURSLARINDAN EFFEKTİV İSTİFADƏ İLƏ YARANA BİLƏCƏK PERSPEKTİVLƏR



**Elvin Paşayev,**
*SOCAR-ın Nəqliyyat İdarəsinin İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin rəisi, Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı*
*e-mail: elvin.pashayev@socar.az*

**UOT:** 33; 37; 336; 311

**Xülasə.** *Məqalədə Azərbaycanda peşə təhsili müəssisələri haqqında məlumat, Azərbaycan Respublikasının dövlət büdcəsində "Peşə təhsili" xərc istiqaməti üzrə pozitiv dəyişikliklər, peşə və tədris kurikulumu haqqında izahlar, işsiz şəxslər üçün məşğulluq xidməti orqanları tərəfindən peşə hazırlığının təşkili haqqında məlumat, peşə təhsilinin iqtisadiyyatda rolu barədə müzakirələr, insan kapitalı indeksinə görə ölkəmizin beynəlxalq aləmdə yeri, işəgötürənlərlə (xüsusilə özəl sektorda olan işəgötürənlərlə) tərəfdaşlığın önəmi öz əksini tapmışdır. Eyni zamanda 2000-ci ildən 2021-ci ilədək məlumatlar təhlil olunmuş və işəgötürənlərin stimullaşdırılması yollarından bəziləri beynəlxalq təcrübəyə əsasən, həmçinin də araşdırma nəticəsində tədqiqata cəlb edilmişdir.*

***Açar sözlər:*** *peşə təhsili, ixtisas, təlim, strateji yol xəritəsi, insan kapitalı, işəgötürən.*
***Key words:*** *vocational education, qualification, training, strateji road map, human capital, employer.*
***Ключевые слова:*** *профессиональное образование, квалификация, обучение, strateji дорожная карта, человеческий капитал, работодатель.*

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli, 1897 nömrəli Sərəncamına əsasən, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" İşçi qrup yaradılaraq 8 əsas və 3 yardımçı olmaqla, 11 sektor üzrə Azərbaycan iqtisadiyyatının 2020-ci ilədək iqtisadi inkişaf strategiyasının və tədbirlər planının, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışın və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışın layihələrinin hazırlanması barədə müvafiq tapşırıqlar verilmişdir. Ölkə əhalisinin yaşayış səviyyəsinin yüksəldilməsi və insan kapitalının inkişaf etdirilməsi uzunmüddətli hədəflərin əsas komponentləri kimi öz əksini tapır. Milli iqtisadiyyat perspektivi çərçivəsində dörd strateji hədəf seçilmişdir. Üçüncü hədəf insan kapitalının inkişafı ilə bağlıdır ki, bununla əmək bazarının inkişafı milli iqtisadiyyat perspektivinə uyğunlaşdırılacaqdır. Bu istiqamətdə

tapşırıqların icra edilməsi məqsədi ilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" sənədi hazırlanmışdır.

Strateji Yol Xəritəsi peşə təhsili və təlimi sahəsində dünyada mövcud meyillər nəzərə alınmaqla, ölkədə əmək bazarının tələblərinə uyğun təhsil proqramları əsasında ixtisaslı kadrlar hazırlayan peşə təhsili sisteminin inkişaf etdirilməsi məqsədi ilə çeviklik və inteqrasiya prinsipləri əsasında hazırlanmışdır.

Strateji Yol Xəritəsinin sosial sferaya təsiri danılmazdır. Belə ki, əhalinin sosial müdafiəsi, sosial layihələrin reallaşdırılması, yeni sosial obyektlərin tikintisi istiqamətində əhəmiyyətli işlər görülüb. Ötən illər ərzində xeyli səhiyyə müəssisəsi, məktəb tikilib və ya əsaslı təmir olunub, orta təhsil müəssisələrinin yarıdan çoxu yenilənib. Gəlirlərin azalmasına baxmayaraq, dövlət başçısının tapşırığına uyğun olaraq sosial layihələrin icrası davam etdirilir [3].

Ölkə vətəndaşlarının sosial rifah halının yaxşılaşdırılmasını və insan inkişafı indeksinin daha yüksək həddə çatdırılmasını təmin edən güclü, çoxşaxəli inklüziv iqtisadiyyatın bərqərar edilməsi Strateji Yol Xəritəsində 2025-ci ildən sonrakı hədəf baxış kimi müəyyən edilmişdir. İmkanlardan səmərəli istifadə etməklə, qısa və ortamüddətli perspektivdə insan kapitalını daha da inkişaf etdirmək və rəqabətqabiliyyətini artırmaq olar. Daha keyfiyyətli insan kapitalının formalaşdırılması daha çox maddi və mənəvi fayda əldə etməyə və rəqabətqabiliyyətliliyi yüksəltməyə imkan verəcəkdir. Bütövlükdə həyatın keyfiyyətinin yaxşılaşdırılması milli iqtisadiyyatın bütün sahələrinin müvəffəqiyyətlərindən asılıdır, ancaq sosial sfera sahələrində belə yaxşılaşma daha çox nəzərə çarpır və daha çox hiss olunur [1].

Müasir Azərbaycan dövlətinin məqsədi müstəqil iqtisadi siyasət yeritməklə güclü iqtisadiyyat yaratmaq, ölkənin strateji resursu sayılan insan kapitalından səmərəli istifadə etmək, əhalinin keyfiyyətli həyat səviyyəsinə nail olmaqdır [11].

**Peşə təhsili sektorunda mövcud vəziyyət**

Azərbaycanda peşə təhsilinin inkişafı ilə bağlı 2016-cı ilədək bir sıra tədbirlər görülmüşdür. Belə ki, Prezidentin 2007-ci il 3 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)" çərçivəsində peşə təhsili sistemində bir sıra tədbirlər həyata keçirilmiş, lakin peşə təhsili müəssisələrinə qəbul səviyyəsinin yüksəlməsinə baxmayaraq, gözlənilən nəticə əldə olunmamışdır. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalı üzrə peşəkar fermerlərin kifayət qədər olmaması kənd təsərrüfatında aşağı məhsuldarlığın ən əsas səbəblərindən biri ola bilər [8]. Bu cür kadr çatışmazlığını digər qeyri-neft sektorlarında fəaliyyət göstərən müəssisələrin çoxuna aid etmək olar.

İnsan kapitalı cəmiyyətin və iqtisadiyyatın inkişafının intensiv məhsuldar amilidir. Bu, yaradıcı peşəkarlar, intellekt, bilik, keyfiyyətli və yüksək məhsuldar əmək, habelə yüksək keyfiyyətli rifah deməkdir. İnsan kapitalının daşıyıcıları özünün tibbi, psixoloji, intellektual, mədəni, yaradıcı və peşəkar qabiliyyətləri, habelə keyfiyyətli rifah səviyyəsi ilə rəqabətqabiliyyətli (yaxud rəqabətə yararlı) insanlardır [14]. Bu baxımdan, peşə təhsili və təliminin inkişafı ölkənin strateji yol xəritəsinin bir hissəsi kimi təşviq edilir. Bütün bunların icra edilməsi məqsədi ilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" sənədinin hazırlanması, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilməsi, əlbəttə, təsadüfi deyildir. Bundan əlavə, məqsədyönlü tədbirlər planının 1.3 bəndinin (peşə təhsili sistemində idarəetmənin təkmilləşdirilməsi) tərkib hissəsi kimi 2016-cı ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin təsis edilməsi peşə-ixtisas təhsili sahəsində dövlət siyasətinin həyata keçirilməsi və əlaqələndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın peşə təhsili sistemi peşə məktəbləri, peşə liseyləri və peşə təhsili mərkəzlərindən ibarətdir. Hazırda ölkənin peşə təhsili sistemində, ümumilikdə, 93 peşə təhsili müəssisəsi fəaliyyət göstərir. Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən dövlət peşə təhsili müəssisələrində 120 ixtisas üzrə 15 minə yaxın tələbə təhsil

alır. Peşə təhsili müəssisələrinə qəbul, əsasən, dövlət hesabına və qismən ödənişli əsaslarla 2 (iki) mərhələdə həyata keçirilir. İxtisas üzrə yeni tədris proqramlarının, kurikulumların və tədris materiallarının hazırlanması və tətbiqi həyata keçirilib [9]. Şəxsiyyətyönümlü kurikulumlar, bilavasitə həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir. Bu kurikulumlarda insanın gələcək həyat fəaliyyətində lazım olacaq praktiki bacarıq və vərdişlər əhatə edilir, onun əqli fəaliyyətlə bağlı qabiliyyətlərinin formalaşması ön plana çəkilir. Tələb olunan bacarıq və vərdişlərin formalaşdırılmasına imkan yaradan minimum biliklərin həcmi müəyyənləşdirilir. Bu biliklər minimum təlim məqsədlərinə çatmaq üçün vasitə kimi nəzərdə tutulur [6].

***Qrafik 1. Peşə təhsili müəssisələri (ilin əvvəli) [5].***




**Qrafik 1**-ə əsasən, son illər peşə təhsili müəssisələrinin birləşməsi nəticəsində onların sayı azalsa da, tələbələrin sayında müsbət dinamikanı görmək olar. Təhlil olunan illər üzrə ən çox tələbə sayı 2011-ci ildə, ən çox müəssisə sayı isə 2016-cı ildə olmuşdur. Müəssisələrin sayında nəzərə alınmalı bir amil də var. Belə ki, peşə təhsili sistemi Ermənistanın işğalçı dövründə ən çox zərər görən sistemlərdən biri olub. Azərbaycan torpaqları işğal edildikdən sonra peşə təhsili müəssisələrinə aid infrastrukturun təxminən 50 faizi qaçqın və məcburi köçkünlərin yerləşdirilməsi üçün istifadə olunub. Bu da səbəblərdən biridir ki, Azərbaycanda fərqli yaş qrupları üzrə ən aşağı keyfiyyət göstəricisi (təhsil və məşğulluq) 15-24 yaş qrupuna, ən yuxarı göstərici isə 55-64 yaş qrupuna aiddir. Bu, o deməkdir ki, ölkənin ən ixtisaslı kadr potensialı yaşlı nəsil arasında, ən zəif kadrlar isə gənclər arasındadır. Lakin torpaqlarımızın müzəffər ordumuz tərəfindən işğaldan azad olunması ilə İşçi qrup və komissiyalarda, dövlət qurumlarında bu sahə üzrə bir çox işlər görülür. İşğaldan azad olunan torpaqlarda peşə təhsili müəssisələrinin fəaliyyəti ilə bağlı məktəblərin harada tikilməsi, profillər və ixtisaslar, infrastruktur, növbəlilik məsələsinə baxılır [9]. Məqsədli peşə inkişafı proqramlarının yaradılması hədəflərin əldə olunmasına təkan verəcək vasitə ola bilər.

Dövlət dəstəyi ilə peşə təhsili müəssisələrinin bazasında müasir mərkəzlərin yaradılması nəticəsində 2019-cu illə müqayisədə 2021-ci ildə tələbə sayı xeyli artmışdır (14 min nəfər). 2021-ci ildən metodologiyada baş vermiş dəyişikliyə əsasən, qısamüddətli kurslarda təhsil alan müdavimlərin sayı tələbələrin ümumi sayına daxil edilmir. Bu səbəbdən, 2021-ci il ilə müqayisənin ədalətli aparılması üçün müəllif tərəfindən əvvəlki illərdə düzəliş olunmuşdur.

Son illərdə peşə təhsili müəssisələrinə qəbul tələbə sayında artıma uyğunlaşmışdır (**qrafik 2**). 2005-ci illə müqayisədə son illər təqribən 30 faiz artım olmuşdur.

***Qrafik 2. Peşə təhsili müəssisələrinə qəbul (nəfər) [5].***




Azərbaycan Respublikasının dövlət büdcəsinə baxdıqda Strateji Yol Xəritəsində qeyd olunan tədbirlər planının icrası ilə əlaqədar olaraq "Peşə təhsili" xərc maddəsində artım müşahidə olunur (**qrafik 3**). Xüsusilə bu artımın 90 faizə yaxını Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayırmalar ilə bağlıdır. 2018-ci illə müqayisədə 2021-ci ildə büdcə maddəsi 82 faiz, 2019-cu illə

müqayisədə 29 faiz artmış, 2020-ci illə müqayisədə isə 5 faiz azalmışdır. İllər üzrə büdcənin icra faizi isə bütün illərdə nəzərdə tutulandan az, təqribən 75-90 faiz aralığında olmuşdur [5].

***Qrafik 3. Azərbaycan Respublikasının dövlət büdcəsində "Peşə təhsili" xərc istiqaməti haqqında (min manatla) [5].***




Dünya Bankının 2020-ci il üçün açıqladığı "İnsan Kapitalı İndeksi" (Human Capital İndex) hesabatında Azərbaycan 173 ölkə arasında orta sıralarda (83-cü) yer almaqla, Küveyt, Braziliya və Səudiyyə Ərəbistanı kimi ölkələri qabaqlamışdır (**qrafiq 4**). 2010-cu il hesabatı ilə müqayisədə indeks 0.08 bənd (0.50-dən 0.58-ə) artmışdır, lakin adambaşına düşən ÜDM demək olar ki, dəyişməmişdir. Göstəricisinə görə, 16-cı yerdə qərarlaşan Avstraliya İttifaqı yüksək inkişaf etmiş ölkədir [13]. Bu ölkədə 2005-ci ildə peşə sertifikatı tələb edən 1760 işəgötürən arasında keçirilən sorğu göstərir ki, bu tələb üç əsas səbəbə görədir. Birincisi, təşkilatlarında müəyyən iş görənləri bacarıqlarla təmin etməkdir (760 səs). İkincisi, qanunvericiliyə riayət etmək üçün (402 səs), üçüncü səbəb, sənaye standartlarına uyğunlaşmaq üçündür (400 səs). Ən az səs verilən səbəb isə rəqabətlilikdir (198 səs) [12]. Bu mənada Dünya İqtisadi Forumu tərəfindən bu günlərdə nəşr edilmiş "Qlobal Rəqabətlilik İndeksi 2019" hesabatı diqqətəlayiqdir. Belə ki, həmin hesabatda Azərbaycan ötən ilki göstəricidən 11 pillə irəliləyərək, 141 ölkə arasında 58-ci yeri tutub [10].

Peşələr müxtəlif yanaşmalar üzrə təsnif edilir. Bir yanaşmada peşələri ***fiziki*** və ***zehni*** əmək kimi **iki** qrupa bölmək olar (əməyin xarakteri əsasında bölgü). Son vaxtlar istehsalın mexanikləşdirilməsi, avtomatlaşdırılması və kompüterləşdirilməsi nəticəsində bu iki qrup arasındakı sərhədlər

***Qrafik 4. İnsan Kapitalı İndeksi, 2020-ci il (COVİD-19) pandemiyası zamanı [13].***




silinməkdədir. Əgər vaxtilə fiziki əməklə fəhlələr, zehni əməklə mühəndis-texniki heyət məşğul olurdusa, bu gün vəziyyət dəyişmişdir. Elə sahələr vardır ki, orada fəhlələr də zehni işlə məşğul ola bilər. Bu gün elə peşələr mövcuddur ki, onu bu qruplardan hər hansı birinə aid etmək asan deyil (məsələn, rəqəmli proqramla idarə edilən dəzgahların operatoru peşəsi). Bu mənada qabaqcıl texnologiyaların idxalı ilə yanaşı, həm də onu idarə edən insan kapitalının formalaşdırılmasını, ümumilikdə təfəkkür tərzinin yeni qlobal çağırışlar və meyillərə uyğun inkişafını həyata keçirtmək vacibdir. Daha qabaqcıl texnologiya və insan kapitalı daha yüksək əlavə dəyər yaradır. Bu baxımdan da dünya ölkələrinin təcrübəsi göstərir ki, kadr hazırlığı prosesi istehsalatdan təcrid edilmiş texnologiyadan uzaq formada həyata keçirilə bilməz. Təhsil müəssisəsi sifarişçinin, yəni işəgötürənin tələb və ehtiyacını öyrənmirsə, texnologiyadan istifadə etmirsə, onda təhsil müəssisəsində hazırlanan kadrların rəqabətqabiliyyətliliyinin səviyyəsi aşağı olur.

Son dövrlərdə yeni açılan peşə təhsili müəssisələrində əmək bazarının tələblərinə uyğun texnologiyaların istifadəsi daha qabarıq şəkildə gözə çarpır (məsələn, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin yeni binası, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi və s.) Belə islahatların maddi-texniki və tədris bazasının fiziki və mənəvi cəhətdən köhnələrək sıradan çıxmış peşə təhsili müəssisələrində aparılması üçün işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası vacibdir. Belə əməkdaşlıqla peşə təhsili müəssisələrində maliyyə tə-

minatını gücləndirmək də mümkündür.

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 190 milyon 950 min manat investisiya tələb olunur. Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası mənbələrindən biri mülkiyyət formasından asılı olmayaraq, yerli idarə, müəssisə və təşkilatların vəsaitləridir. İşəgötürənlər üçün stimullaşdırıcı tədbirlər görməklə **(şəkil 1)**, dövlət büdcəsinin yükünü azaltmaq, qeyd olunan vəsait həcmini xarici və daxili investorlar hesabına maliyyələşdirmək olar.




***Şəkil 1. Tərəfdaşlıq səviyyəsinə uyğun olaraq işəgötürənlər üçün stimullaşdırıcı tədbirlər [2].***

Mütəmadi olaraq peşəyönümü və peşə hazırlığı xidmətinin mahiyyətinin daha dərindən anlaşılması, təbliğ olunması məqsədi ilə Bakı şəhərində, eləcə də digər şəhər və rayonlarda icra hakimiyyətinin nümayəndələri, təhsil işçiləri, valideynlər, tələbələr cəlb edilməklə konfranslar keçirilir. Son zamanlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Beynəlxalq Əmək Təşkilatının dəstəyi ilə bir sıra dövlətlərin (İsveç, Almaniya, Avstriya, İrlandiya, Litva, Rusiya və s.) təcrübəsinə əsaslanaraq, peşə hazırlığı və peşəyönümü işinin təkmilləşdirilməsi istiqamətlərində layihələr həyata keçirilir. Belə layihələrdən biri də əmək bazarında olan tələb və təklifin öyrənilməsini iqtisadiyyatda daha çox tələb olunan peşə və ixtisasların müəyyən edilməsini nəzərdə tutan observatoriyanın yaradılmasıdır [7]. Milli Observatoriya əmək bazarı və sosial müdafiə sahələrində mövcud vəziyyəti qiymətləndirməklə, inkişaf meyillərinin öyrənilməsini və monitorinqləri həyata keçirtməklə Prezident İlham Əliyevin 2020-ci il 13 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş və məşğulluq sahəsində növbəti mühüm irəliləyişlərə imkan yaradan "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nda da gənclərin məşğulluq imkanlarının artırılmasına yönəldilən tədbirlərin icrasında əhəmiyyətli rol oynayır. Gənclərin məşğulluğu sahəsində dövlət siyasətinin uğurlu icrası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirlərinin əsas hədəflərindən biridir. Bu istiqamətdə aparılan işlərin davamı olaraq, 2019-cu ildə adı çəkilən nazirlik yanında Dövlət Məşğulluq Xidmətinin münasib işlərlə təmin etdiyi 103 028 işsiz və işaxtaran şəxslərdən 23,3 faizini və ya 24 033 nəfərini, məhz gənclər təşkil edib [4]. Eyni zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əmək ehtiyatları balansının tərtibinə dair avtomatlaşdırılmış kompleks məlumatlar sisteminin yaradılması ilə bağlı qaydaların layihəsi də hazırlanmışdır. Qeyd olunan sistem yaradıldıqdan sonra əmək ehtiyatları balansı üzrə məlumatların toplanılması, işlənilməsi və emal olunması, habelə Respublika üzrə məlumatların icmallaşdırılması və nəticə etibarı ilə ölkədə əmək bazarının vəziyyəti, habelə dövlət məşğulluq siyasətinin vacib alətlərindən biri kimi əmək ehtiyatlarının balansı, işçi qüvvəsinin ərazi üzrə bölgüsü və digər vacib göstəricilər üzrə sistemləşdirilmiş və təfərrüatlı hesabat və statistikanın formalaşdırılması mümkün olacaqdır.

**Nəticə.** Bu araşdırmanın nəticələrinə və məhdudiyyətlərinə əsaslanaraq, siyasət, təcrübə və gələcək tədqiqatlar üçün bir neçə tövsiyə təklif olunur:

• Hökumət ölkədə peşə təhsili və təlimini genişləndirmək və inkişaf etdirmək üçün özəl sektorda olan işəgötürənlərlə əməkdaşlığı daha da artırmalıdır. Xüsusilə dövlət işəgötürənlərin resurslarından istifadə etməli, peşə təhsili və təliminə özəl sektorun investisiyalarını cəlb etməlidir.

• Təhsil Nazirliyi və müvafiq Agentlik peşə təhsili və təlimi üçün aydın vizyon və missiya verməlidir. Hökumət peşə təhsili müəssisələri ilə tərəfdaşlığı və əməkdaşlığı təşviq etmək üçün özəl sektora təsirli stimullaşdırıcı təkliflər təqdim etməlidir.

• Hökumət, xüsusən də Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi peşə

təhsili və təlimi ilə bağlı əsas siyasət qərarlarını tərtib etməzdən əvvəl müəllimlər, sənaye işçiləri, valideynlər, tələbələr, akademiklər və digər peşə sahibləri kimi çoxsaylı maraqlı tərəflərlə sorğu keçirməlidir.

• Texniki işçiyə qoyulan tələblərə cavabvermə qabiliyyəti, həyati bacarıq və vərdişlərin peşə proqramlarına inteqrasiyası yolu ilə məktəb proqramında balanslaşdırılmış yanaşması vurğulanmalıdır. Bundan əlavə, peşə tədris kurikulumları çevik olmalı və millətin bugünkü və gələcək ehtiyaclarına cavab verməlidir.

• Hökumət bürokratiyanı peşə proqramlarının səmərəliliyini və effektivliyini artırmalıdır. Bundan başqa, araşdırma zamanı dövlət büdcəsində "Peşə təhsili" xərc maddəsinin son illərdə kəskin artması müşahidə olundu. Lakin müəssisə və tələbələrin sayı demək olar ki, dəyişmədi. Həmin xərc maddəsini artırmaq əvəzinə, büdcə gəlirdə (vergilər) işəgötürənlərin stimullaşdırılması üçün azalmaya doğru gedilməlidir.

• Qloballaşmanın səbəb olduğu artan bazar tələbləri və beynəlxalq təşkilatların təhsili siyasətində aktivliyi nəzərə alaraq, işəgötürənlərlə birlikdə kadr tələbatının proqnozlaşdırılması və məşğulluq sistemində işaxtaranların (xüsusilə gənclərin) peşə bacarıqlarına yiyələnməsi və işəgötürənlərlə tərəfdaşlıq çərçivəsində peşə təhsili müəssisələrinə işəgötürənlərdə çalışan istehsalat təcrübəli kadrların xidməti müqavilə ilə tədrisə cəlb olunması, əks əlaqə ilə işçilərin peşə təhsili müəssisələrində təlim keçməsi imkanları araşdırılmalı, həmçinin işə qəbul prosesində və iş zamanı peşə üzrə sertifikat tələb olunmalıdır (məqalədə qeyd olunan Avstraliya təcrübəsi).

Tədqiqatın ümumi sonluğu olaraq bildirmək lazımdır ki, peşə təhsili və təlimlərinin inkişafı üçün dövlət büdcəsində nəzərdə tutulan xərc istiqamətinin differsiyallaşdırılması və dəyişdirilməsi, xərclərin optimallaşdırılması və effektivliyin artırılması yolu ilə maliyyələşdirmə mexanizminin hazırlanması xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. Quliyeva A.Ə. Sosial sferaya investisiyaların milli iqtisadi potensialın artımına təsiri. "Maliyyə və uçot" jurnalı, №6, 2019, səh. 56.

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi.

3. Bayramov V. Strateji Yol Xəritəsində əsas hədəflərdən biri qeyri-neft sektorunun inkişafını sürətləndirməkdir. "Xalq qəzeti", 8 yanvar 2017, səh. 1.

4. Cavadov N.Ə., Məmmədova A.V., Məmmədov S.C. Azərbaycanda məşğulluğun təmin edilməsində dövlət siyasəti. Gəncə, "İnnovasiyalı iqtisadiyyat və menecment" jurnalı, №2/4, 2020, səh. 11-20.

5. Dövlət Statistika Komitəsi.
https://www.stat.gov.az

6. Eminov M. Kurikulum islahati: şəxsiyyətyönümlü təhsilin məzmununa verilən tələblər. Naxçıvan, elmi əsərlər (Naxçıvan Dövlət Universiteti), humanitar elmlər seriyası, №1 (66), 2015, səh. 239-242.

7. Quliyev C.Ə. Bazar iqtisadiyyatının inkişafında peşə təhsilinin yeri. Bakı, "Peşə təhsili və insan kapitalı" jurnalı. Cild 2, №2, 2019, səh. 45-49.

8. Paşayev E.T. Tarım sektörünün analizi ve finansal kaynakların verimli kullanılmasıyla ortaya çıkabilecek perspektifler (Azerbaycan örneğinde). Middle East Internatıonal Conference On Contemporary Scientific Studies VI. Beirut, Lebanon, 20-22 september 2021, pp. 276.

9. Peşə Təhsili üzrə Dövlət Agentliyi.:
https://vet.edu.gov.az

10. Schwab K.M. Global Competitiveness Report 2019, [Electronic resource] / World Economic Forum. Geneva/Switzerland 2019.
http://www3.weforum.org/docs/WEF_The-Global Competitiveness Report 2019, pdf (accessed 13 October 2021).

11. Səmədzadə Z. Qlobal dünya iqtisadiyyatında sarsıntılar şəraitində Azərbaycanın dinamik inkişaf strategiyası barədə. //Azərbaycan iqtisadiyyatının Strateji Yol Xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri. Bakı, 21-23 sentyabr 2017, səh.14.

12. Smith A., Oczkowski E., Hill M. Reasons for Training: Why Australian Employers Train Their Workers. A National Vocational Education and Training Research and Evaluation Program Report: [Electronic resource] / National Centre for Vocational Education Research (NCVER)

ERIC Number: ED507236. Australia, 2009.
https://eric.ed.gov/?id=ED507236 (accessed 14 October 2021).

13. World Bank. 2020. The Human Capital Index 2020 Update : Human Capital in the Time of COVID-19. World Bank, Washington, DC. © World Bank.
https://openknowledge.worldbank.org/handle/10986/34432License:CCBY3.0 IGO.

14. Zeynallı L. İnsan kapitalından istifadədə dünya təcrübəsinin müqayisəli təhlili. Bakı, "İpək yolu" jurnalı, №2, 2020, səh. 100-114.

**E.Pashayev**

## The place of vocational education in the economic development of the country and the opportunities greated by the effective use of financial resources

**Abstract**

The article contains information about vocational education institutions in Azerbaijan, positive changes in the state budget of the Republic of Azerbaijan in the direction of "Vocational Education", explanations on vocational and educational curriculum, information on the organization of vocational training for the unemployed, discussions on the role of vocational education in the economy. According to the capital index, our country's place in the international arena and the importance of partnership with employers (especially those in the private sector) are reflected. The article analyzes the data from 2000 to 2021 and identifies some of the ways to stimulate employers, based on international experience. In the end, the proposals were noted as a result of the study.

**Э.Пашаев**

## Роль профессионального образования в экономическом развитии страны и перспективы, которые могут быть созданы при эффективном использовании финансовых ресурсов

**Аннотация**

В статье содержится информация о профессиональных учебных заведениях в Азербайджане, положительные изменения в государственном бюджете Азербайджанской Республики по статье «Профессиональное образование», пояснения по профессионально-образовательной программе, информация об организации профессионального обучения безработных, обсуждение роли профессионального образования в экономике. В соответствии с индексом капитала отражается место нашей страны на международной арене и важность партнерства с работодателями (особенно в частном секторе). В том числе в статье проанализированы данные с 2000 по 2021 год и определены некоторые способы стимулирования работодателей, основанные на международном опыте. В итоге предложения были вовлечены в результате исследования.